Azərbaycan Texniki Universitetinin Elmi Şurasının "14" Dekabr 2021-ci il tarixli iclasının qərarı ilə təsdiq edilmişdir (protokol № 3).

**Azərbaycan Texniki Universitetinin professor-müəllim heyətinin fəaliyyətinin stimullaşdırılması sisteminin tətbiqi haqqında**

## QAYDALAR

### 1. Ümumi müddəalar

1.1. Azərbaycan Texniki Universitetində (bundan sonra – AzTU) professor-müəllim heyətinin fəaliyyətinin stimullaşdırılması sisteminin (bundan sonra - Sistem) tətbiqi haqqında Qaydalar (bundan sonra – Qaydalar) AzTU-da professor-müəllim heyətinin elmi-pedaqoji fəaliyyətinin obyektiv meyarlar əsasında qiymətləndirilərək əmək haqqının diferensiallaşdırılması və mükafatlandırma ilə bağlı yaranan münasibətləri tənzimləyir.

1.2. Bu Qaydalar "Təhsil haqqında" Azərbaycan Respublikasının 19 iyun 2009-cu il tarixli Qanunu, "Elm haqqında" Azərbaycan Respublikasının 14 iyun 2016-cı il tarixli Qanunu, Azərbaycan Respublikası Əmək Məcəlləsi, Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 19 yanvar tarixli 995 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" və AzTU-da Nizamnaməsi əsasında tərtib edilmişdir.

1.3. Bu Qaydaların tətbiqində məqsəd AzTU-da çalışan professor-müəllim heyətinə ödəniləcək əmək haqqının diferesial olaraq hesablanması, elm sahələrinin xüsusiyyətlərini və professor-müəllim heyətinin tədris, elmi-tədqiqat, layihə fəaliyyətlərinin qiymətləndirilməsi zamanı ballarının hesablanmasına dair prosedur və prinsipləri, eləcə də mükafatlandırma sisteminin tətbiqi və bu hesablamaları tətbiq edəcək komissiyanın səlahiyyətləri ilə bağlı məsələləri müəyyənləşdirməkdir.

1.4. Differensial əmək haqqı sistemi və maükafatlandırma AzTU-da əsas və əlavə iş yeri üzrə çalışan professor-müəllim heyətinə tətbiq edilir.

1.5. Sistem professor-müəllim heyətinin qiymətləndirməsi nəticəsinə əsaslanaraq onların elmi dərəcə və ya elmi ada müvafiq vəzifə maaşlarına hər il üçün AzTU Elmi Şurası tərəfindən hər tədris ilinin əvvəlində müəyyən edilən əmsallar üzrə əlavələrin edilməsini və mükafatların məbləğini nəzərdə tutur.

1.6. Diferensial əmək haqqı və mükafatlar layihələrdə iştirak və tədqiqat fəaliyyətinin nəticələrinə görə aparılır.

### 2. Diferensial əmək haqqı komissiyası

2.1. Bu Qaydada AzTU-da yüksək fəaliyyət balına sahib olan müəllim heyətindən ən az bir nəfər olmaqla rektorun hər bir üzvlük üçün təklif edilən üç namizəd arasından şura tərəfindən seçilən üzvlərdən ibarət differensial əmək haqqı komissiyası formalaşdırılır.

2.2. Komissiyaya rəhbərliyi rektor tərəfindən təyin olunan prorektor həyata keçirir. Komissiya, sədr istisna olmaqla ən azı dörd üzvdən ibarət olması şərti ilə bir il müddətinə seçilir. Müddəti bitmiş bir üzv yenidən seçilə bilər. Üzvlərin hər hansı bir səbəbdən üzvlükdən çıxdıqda komissiyanın formalaşdırılması üçün eyni şəkildə yeni üzvlər seçilir.

2.3. Komissiya sənədlərin iddiaçılar tərəfindən elektron qaydada sistemə daxil edilməsi üçün lazımi rəqəmsallaşmanı təmin edir.

2.4. Bütün məlumatlar sistemə daxil edilir və nəticələr sistemdən əldə edilir və komissiya bu məlumatların döğruluğunu nəzarəti həyata keçirməklə təsdiq edir.

2.5. Komissiya, sədr də daxil olmaqla üzvlərin ümumi sayının mütləq çoxluğu ilə toplanır və iştirakçıların mütləq əksəriyyəti ilə qərarlar qəbul edir. Səslər bərabər olduqda, komissiya sədrinin səsi həlledici sayılır. Üzvlər qərarların qəbul edilməsi zamanı bitərəf qala bilməz.

2.6. Komissiya üzvlərinə aid informasiyaların izlənməsi və qərarın qəbul edilməsi rektorun rəhbərlik etdiyi arı komissiya tərəfindən həyata keçirilir.

## 3. Diferensial əmәkhaqqı sisteminin müraciət və qiymətləndirmə prosesi

3.1. Professor-müəllim heyəti hər tədris ilinin əvvəlində differensial əmək haqqı sisteminə məlumat və tələb olunan sənədləri elektron qaydada daxil edirlər.

3.2. Professor-müəllim heyətinin digər müəssisələrdə əmək fəaliyyəti ilə məşğul olması halında onların fəaliyyət balının hesablanması zamanı AzTU-da olan fəaliyyəti qiymətləndirilir.

3.3. Diferensial əmək haqqı komissiyası daxil olan sənədlərə uyğun olaraq elektorn sistemin nıticələrini analiz edir və nəticələrin təsdiqi üçün lazımi prosedurları həyata keçirir

3.4. Komissiyanın təqdim edilən sənədləri bu Qaydalara uyğun formada yoxlamaqda məsuliyyət daşıyır.

3.5. Komissiya zəruri hallarda, müraciətçilərdən əlavə sənədlər və məlumatlar tələb edə bilər. Komissiya qərar protokolunu, müraciətlər üzrə qiymətləndirmə hesabatını və əlavədə bal cədvəlini imzalayır və son qərarlarını yazılı və ya elektron şəkildə müvafiq tədqiqatçılara bildirir. Komissiya tərəfindən hazırlanan qiymətləndirmə hesabatında, imtina edilən və ya bal dəyərində dəyişiklik edilən akademik fəaliyyətlərlə əlaqədar olaraq izahat vermək məcburidir.

3.6. Komissiyanın qərarlarına elan verildiyi gündən beş iş günü ərzində yazılı etiraz edilə bilər. Komissiya etiraz müddətinin bitməsindən sonra ən geci beş iş günü ərzində etirazlar barədə qərar verir.

3.7. Dəvət olunmuş əcnəbi müəllimlər differensial əmək haqqı sistemindən eyni qaydada yararlana bilərlər

## 4. Fəaliyyət sahələrinin dəyərləndirilməsi

4.1. Müraciət edənlərin yalnız ali təhsil sahəsindəki təqvim ili (1 yanvar ilə 31 dekabr) ərzində fəaliyyətləri diferensial əmək haqqı sistemi çərçivəsində dəyərləndirilir.

4.2. Layihə və tədqiqat fəaliyyətinin qiymətləndirilməsində yalnız elm, təhsil və texnologiyaya töhfə verən, ölkə daxilində (o cümlədən universitetdə) və ya xaricində uğurla başa çatdırılmış və yekun hesabatı təsdiqlənmiş layihələr nəzərə alınır.

4.3. İstinadların qiymətləndirilməsində yalnız bu Qayda çərçivəsində qiymətləndirilən nəşrlərdə və ya əsərlərdə və bu Qayda çərçivəsində qiymətləndirilən nəşrlərə və ya əsərlərə edilən istinadlar nəzərə alınır, digərləri istisna edilir. Bununla yanaşı, fərqli fəsil müəllifləri olan kitablarda fərqli fəsillərdə edilən hər bir sitat üçün ayrıca balla qiymətləndirilir.

4.4. Mükafatların qiymətləndirilməsində mükafatın alındığı, layihələrin və tədqiqatların qiymətləndirilməsində layihələr və tədqiqatların yekunlaşdığı, dizaynların qiymətləndirilməsində dizaynın başa çatdığı, patentlərin qiymətləndirilməsində, patentin qeydiyyata alındığı tarix və sərgilərin qiymətləndirilməsində sərginin açıldığı tarix əsas götürülür.

## 5. Differensial əmək haqqının hesablanması qaydası

5.1. Akademik təşviq balı bu Nizamnaməyə əlavə edilmiş Fəaliyyət Hesablama Cədvəlinə əsasən aşağıdakı kimi hesablanır (*Cədvəl 1*).

a) Əvvəlcə hər bir akademik fəaliyyət növü üçün bal hesablanır. Bu hesablama, müəllimin hər bir fəaliyyət növü üçün müəyyən edilmiş fəaliyyətlər üçün aldığı faizlərin cəmi ilə hər bir akademik fəaliyyət növü üçün təyin olunan balın hasili ilə əldə edilir [*Akademik fəaliyyət növü balı = fəaliyyət nisbətləri cəmi x akademik fəaliyyət növü üçün təyin olunan bal*].

b) Hər bir akademik fəaliyyət növündən alınan balları toplayaraq, akademik təşviq ödənişinə əsasən akademik təşviq balı hesablanır.

**Cədvəl 1. Balların hesablanması**

| № | Fəaliyyət | Faiz |
|---|---|---|
| | **1. Layihə** | |
| 1.1. | H2020 beynəlxalq layihələrdə iştirak | r x 80 |
| 1.2. | Beynəlxalq təhsil və tədqiqat layihələrində (TEMPUS, ERSMUS və s.) iştirak | r x 60 |
| 1.3. | Elmin İnkişafı Fondu tərəfindən elan olunmuş | r x 40 |
| 1.4. | Milli səviyyəli təhsil və tədqiqat lbayihələrində iştirak | r x 20 |
| | **2. Nəşr** | |
| 2.1. | SCI, SCI-Expanded, SSCI və AHCI çərçivəsindəki jurnallarda məqalə dərci * | k x p x 60 |
| 2.2. | SCI, SCI-Expanded, SSCI və AHCI çərçivəsindəki jurnallarda redaktorluq | 30 |
| 2.3. | Nüfuzlu beynəlxalq nəşriyyatlar tərəfindən dərc edilmiş orijinal elmi kitab | k x 80 |
| 2.4. | Nüfuzlu beynəlxalq nəşriyyatlar tərəfindən dərc edilmiş orijinal elmi kitab redaktorluğu | 30 |
| | **3. Patent** | |
| 3.1. | Beynəlxalq patent | k x 100 |
| 3.2. | Milli patent | k x 60 |
| | **4. İstinadlar (özündən kənar istinadlar)** | |
| 4.1. | SCI, SCI-Expanded, SSCI və AHCI çərçivəsindəki jurnallarda dərc edilmiş məqalələrdə istinad | 6 |
| 4.2. | Nüfuzlu beynəlxalq nəşriyyatlar tərəfindən dərc edilmiş orijinal elmi kitabda istinad | 4 |
| | **5. İndeks - Google Scholar** (h və ya i10 indeksindən yalnız biri qiymətləndirilir) | |

| | | |
|---|---|---|
| 5.1. | Hər bir h indeksinə görə | 2 |
| 5.2. | Hər bir i10 indeksinə görə | 1 |
| | **6. Konfrans** | |
| 6.1. | Nüfuzlu beynəlxalq elmi konfransda, simpoziumda və ya konqresdə dərc edilən tam məruzə | k x 15 |

*SCI: Elm İstinad İndeksini (Science Citation Index); SCI-Expanded: Genişləndirilmiş-Elm İstinad İndeksini (Science Citation Index-Expanded); SSCI: Sosial Elmlər İstinad İndeksi (Social Sciences Citation Index), AHCI - Sənət və Sosial Elmlər İndeksi (Art and Humanities Index).

5.2. Müəllimin hər bir fəaliyyət növündən toplanan fəaliyyət balı akademik fəaliyyət növü üçün müəyyən edilmiş balı, akademik təşviq balı (ümumi fəaliyyət balı) isə yüz balı keçə bilməz.

5.3. Çox müəllifli nəşrlər (məqalələr, icmal, kitab və ya kitab fəsilləri), məruzə və patent üçün dərəcələr müəyyən edilərkən, fəaliyyətdəki insanların sayına görə fərqli dəyərlər alan aşağıdakı cədvəldəki (k) əmsalı, əsas götürülür (*Cədvəl 2*).

**Cədvəl 2. k - əmsalının həmmüəlliflərinin sayına uyğun qiyməti**

| № | Həmmüəlliflərin sayı | K |
|---|---|---|
| 1 | 1 | 1 |
| 2 | 2 | 0,75 |
| 3 | 3 | 0,5 |
| 4 | 4 vəya daha çox | 1/müəllif sayı |

5.4. Akademik təşviq çərçivəsində qiymətləndirilə bilən layihələr üçün, müraciətçinin layihədəki rolunu göstərən r - əmsalı: rəhbər üçün r = 1, icraçı üçün 0.5 müəyyən edilir.

5.5. Beynəlxalq indeksli jurnallarda dərc edilmiş məqaləsi, icmal məqalə üçün akademik təşviq balının hesablanmasında məqalənin dərc edildiyi il üçün jurnalın ISI Web of Science tərəfindən ən son dərc edilən Kvartil (Quartile) təsnifatına əsaslanan aşağıdakı cədvəldəki (p) əmsalı istifadə edilmişdir. Bununla birlikdə, son rüblük siyahıdan sonra nəzərə alınan jurnalların müvafiq Q dəyəri qəbul edilir, Q dəyəri müəyyən edilməyən jurnallar üçün ən aşağı əmsal dəyəri tətbiq edilir (*Cədvəl 3*).

**3. Cədvəl 2. p - nin qiyməti**

| № | Jurnal ISI Web of Science Kvartil Qrupu | P |
|---|---|---|
| 1 | Q1 | 1 |
| 2 | Q2 | 0,75 |
| 3 | Q3 | 0,5 |
| 4 | Q4 | 0,25 |

5.6. Balların və ödənişlərin hesablanmasında müəllimin təşviq müraciəti etdiyi tarixdəki ştat vəzifəsi nəzərə alınır.

5.7. Müvafiq tədris ili üzrə əmsallar aşağıdakı kimi müəyyən edir:

- reytinq siyahısında 1-10-cu yerləri tutan prfessor-müəllim heyətinin vəzifə maaşı 30% artırılır;

- reytinq siyahısında 11-30-ci yerləri tutan prfessor-müəllim heyətinin vəzifə maaşı 20% artırılır;
- reytinq siyahısında 30-60-cu yerləri tutan prfessor-müəllim heyətinin vəzifə maaşı 10% artırılır;

5.8. Elmi Şura tərəfindən müəyyən edilən bu əmsallar AzTU-nun hər il üzrə büdcəsindən ayırdığı vəsaitlərin həcminə uyğun olaraq dəyişə bilər.

5.9. Növbəti tədris ili ərzində hər hansı səbəbdən başqa pedaqoji vəzifəyə keçirilən müəllimlərin vəzifə maaşına təyin olunmuş əlavə həmin tədris ili ərzində sabit qalır.

5.10. Növbəti tədris ili ərzində müəllim öz pedaqoji fəaliyyətini davam etdirdiyi, lakin tutduğu ştat vahidi azaldığı halda vəzifə maaşına təyin olunmuş əlavə ştat vahidində baş vermiş azalma nisbətində azaldılır.

5.11. Növbəti tədris ili ərzində müəllim öz pedaqoji fəaliyyətini dayandırıb başqa hər hansı vəzifəyə keçdiyi gündən vəzifə maaşına təyin olunmuş əlavə dayandırılır.

## 6. SCI, SCI-Expanded, SSCI və AHCI çərçivəsindəki jurnallarda məqalə dərci üçün birdəfəlik mükafatın verilməsi

6.1. SCI, SCI-Expanded, SSCI və AHCI çərçivəsindəki jurnallarda məqalə dərci üçün birdəfəlik mükafat Cədvəl 3 - ə müvafiq olaraq ***p x A*** kimi hesablanır. Burada ***A*** – Jurnal ISI Web of Science Kvartil Qrupu üzrə Q1 səviyyəsinə müvafiq bazis məbləğdir.

6.2. Bazis məbləği hər il üçün Elmi Şura tərəfindən müəyyən edilir.

## 7. Yekun müddəalar

7.1. Differensial əməkhaqqı sistemi il ərzində tədris prosesi ilə əlaqədar intizam tənbehi tətbiq edilmiş professor-müəllim heyətinə şamil edilmir.

7.2. Ödəniş edildikdən sonra, həqiqətə uyğun olmayan və ya bu Qayda çərçivəsində düzgün olmadığı anlaşılan fəaliyyətlər üçün müraciət etdikləri aşkar edilən şəxslərə edilən ödənişlər geri tələb olunur.